2024

AZƏRBAYCAN SIĞORTAÇILAR ASSOSİASİYASI

# Bülleten APREL

0

# Azərbaycanda ilk dəfə "Insurtech Zirvəsi" keçirilib




Azərbaycan Mərkəzi Bankının strateji dəstəyi, ASA, "Türkiye InsurTech Hub" və "New Generation Management Company"nin birgə təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə "Azərbaycan Insurtech Zirvəsi" keçirilib.

Tədbirdə Azərbaycanın və Türkiyənin sığorta sektorunun və texnologiya brendlərinin nümayəndələri, eləcə də maliyyə bazarının digər təmsilçiləri iştirak ediblər.

Zirvə toplantısının başlıca məqsədi Türkiyə sığorta şirkətlərinin rəqəmsallaşma sahəsindəki təcrübələri və Türkiyənin sektor lideri olan texnologiya brendləri ilə birgə Azərbaycanın sığorta bazarında rəqəmsallaşmanın inkişafına töhfə vermək olub.

Tədbirdə Azərbaycan Respublikasının Mərkəzi Bankının sədri Taleh Kazımov, Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, millət vəkili Tahir Mirkişili və digər rəsmilər çıxış ediblər.

Zirvə çərçivəsində Azərbaycan Mərkəzi Bankının baş direktoru Ziya Əliyevin və türkiyəli spiker Fatih Acerin sığorta sektorunun təhlilinə dair təqdimatları nümayiş etdirilib. Həmçinin Azərbaycan və Türkiyə panelləri üzrə təşkil olunmuş müzakirələrdə qardaş ölkələrin spikerləri təcrübə mübadiləsi ediblər.

# Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycan Sığortaçılar Assosiasiyası ilə görüşüb

Görüşdə ASA-nın icraçı direktoru Elmar Mirsalayev sığorta sektorunda görülən işlər, həyata keçirilən islahatlar və əldə olunan nailiyyətlər haqqında məlumat verib. Gənclərin və peşəkar idmançıların sığortaya cəlb olunması və onların sığorta ilə bağlı məlumatlılıq səviyyələrinin artırılması məqsədilə ASA tərəfindən həyata keçirilməsi nəzərdə tutulan "Sığortalı gənclik – Sığortalı gələcək" layihəsi barədə danışıb. Həmçinin ümumrespublika səviyyəsini əhatə edəcək bu layihə ilə gənclərdə sığortaya marağın artırılması və sığorta vərdişlərinin yaradılmasının mümkün olacağı qeyd olunub.



Görüşdə "Sığortalı gənclik – Sığortalı gələcək" layihəsinin reallaşdırılması ilə bağlı ilkin razılıq əldə olunub.

## ASA ilə Medianın İnkişafı Agentliyi arasında görüş keçirilib




ASA-nın İcraçı direktoru Elmar Mirsalayev görüşdə son illər sığorta sektorunda aparılan islahatlardan və əldə olunan nailiyyətlərdən danışıb, ölkədə həyata keçirilən sığorta maarifləndirməsi layihəsi haqqında məlumat verib.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov da öz növbəsində sığorta sektorunun inkişafı istiqamətində görülən işləri maraqla qarşıladığını bildirib. Sığorta sektorunun media ilə qurduğu əlaqələri uğurlu hesab edərək yüksək qiymətləndirib.

Görüşdə, medianın inkişafına, habelə KİV vasitəsilə sığorta maarifləndirməsi işlərinin aparılmasına göstərilən dəstəyə görə ASA tərəfindən təsis olunmuş xüsusi mükafat MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılova təqdim olunub.

## Sığortaçılar Türkiyə-Azərbaycan Ticarət Heyətinin İşgüzar Görüşündə iştirak edib

Bakıda Türkiyənin Ticarət Nazirliyi və Türkiyə İxracatçılar Məclisinin birgə təşkilatçılığı ilə "Türkiyə-Azərbaycan Ticarət Heyətinin İşgüzar Görüşü"nə həsr olunmuş tədbir keçirilib. ASA-nın dəvətli olduğu tədbirdə Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağcı, KOBİA-nın İdarə Heyətinin sədr müavini Hikmət Məmmədov, habelə yerli və xarici sahibkarlar da iştirak ediblər.



## Ən böyük dəniz sığortası hadisəsi baş verib: 4 milyard dollar zərər

ABŞ-nin Merilend ştatının Baltimor şəhərində "Dali" adlı yük gəmisi Frensis Skott Key körpüsünə çırpılıb. Hadisənin səbəb olduğu zərər 4 milyard dollardır. 2 nəfərin həyatını itirdiyi, 6 nəfərin isə itkin düşdüyü qəza nəticəsində ABŞ-nin 14-cü ən böyük limanı olan Baltimor limanı gəmilərin hərəkətinə bağlanıb.



Bundan əlavə, hadisənin dəniz məsuliyyəti, əmlak, yük və biznesin dayandırılması da daxil olmaqla bir çox sığorta növlərinə səbəb olacağı gözlənilir. Lloyd's CEO-su Con Neal-ın qeyd etdiyi kimi, qəzada həm körpü, həm də gəmi sığortalanıb.

## 2025-ci ildə sığortada rəqəmsallaşma ön planda olacaq

Dünya sığorta araşdırmaçılarının fikrincə 2025 ildə daha da inkişaf edib geniş əhatəyə yayılacaq süni zəka, açıq maliyyə, blokçeyn və əşyaların interneti kimi yeni trendlər, sığorta bazarları üçün yeni imkanlar qazandıracaq. Ekspertlərin fikrincə bu texnologiyaların inteqrasiyası ilə sığorta şirkətləri daha səmərəli biznes prosesləri yarada, müştərilərə daha yaxşı xidmət göstərə və daha dəqiq qiymət strategiyaları hazırlaya bicəklər.



2025-ci ilə qədər əşyaların interneti, böyük verilənlər və robot texnologiyaları sahəsindəki yeniliklərin sığorta sənayesinə 3,2 trilyon ABŞ dollar töhfə verəcəyi də proqnozlaşdırılır.

## Rəqəmsal aktivlərin sahibləri üçün sığorta proqramı

Qlobal arenada rəqəmsal aktivlərin sahibləri, maliyyə institutları və institusional investorlar üçün nəzərdə tutulmuş, 825 milyon dollara qədər əhatə dairəsi olan sığorta proqramı işə salınır.

Proqram, fiziki və təbii etibarsızlıqlar, üçüncü şəxslər tərəfindən oğurluq və daxili təhlükəsizlik də daxil olmaqla risklərin spektrini nəzərə alaraq, rəqəmsal aktivlərin qorunması ilə bağlı təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə yönəlib.

Bu mexanizm Lloyd's sindikatlarının və Londonda yerləşən beynəlxalq sığorta şirkətlərinin dəstəyi ilə rəqəmsal aktivlərin artan bazarı ilə bağlı riskləri azaltmağa kömək edəcək. Bu ölkələrdə bazarın eksponent böyüməsi səbəbindən bir çox şirkət kripto-aktivlərin saxlanmasına görə daha çox müştəri cəlb etmək üçün yarışır.

Marsh Technology Industry Risk Study-nin məlumatına görə, qlobal texnologiya sektorunda respondentlərin yarısı rəqəmsal aktivlərlə bağlı imkanları ya aktiv şəkildə təqib edir, ya da araşdırırlar.

## "Bakı Sığorta" ASC



*Sığorta növü: Tikintidə istifadə olunan maşın və avadanlıqların sığortası*
*Sığorta hadisəsi: Yanğın*
*Sığorta məbləği:* ***110 000 AZN***



## "İpək Yolu Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Avtomobilin alın şüşəsinin çatlaması*
*Sığorta məbləği:* ***1 837 AZN***

## "Qala Həyat Sığorta" ASC



*Sığorta növü: Qrup halında sığorta*
*Sığorta hadisəsi: Sığorta olunanın xəsarət alması*
*Sığorta məbləği:* ***43 632,29 AZN***



## "Qala Sığorta" ASC

*Sığorta növü: Nəqliyyat vasitələrinin tam sığortası*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***48 500 AZN***

"Meqa Həyat Sığorta" ASC

*Sığorta növü: Qrup halında sığorta*
*Sığorta hadisəsi: Sığorta olunanın xəsarət alması*
*Sığorta məbləği:* ***5 818, 79 AZN***





"Meqa Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***22 190 AZN***

## “Qala Sığorta” Şirkətinin layihəsi “ASAN Könüllüləri” vasitəsilə həyata keçiriləcək







Korporativ Sosial Məsuliyyət sahəsini daim prioritet kimi nəzərdə saxlayan “Qala Sığorta” Şirkətinin hazırkı layihəsi “ASAN Könüllüləri” təşkilatı vasitəsilə həyata keçiriləcək. “ASAN Xidmət” konsepsiyasının tərkib hissəsi olan təşkilatın 10-dan çox layihəsnin böyük hissəsini “Qala Sığorta” maliyyələşdirəcək.

“Qala Sığorta” Şirkəti 1 may 2024-cü il tarixində sözügedən layihələrlə bağlı “ASAN Könüllüləri” təşkilatı ilə anlaşma memorandumu imzalayıb.

İmzalama mərasimində “Qala Sığorta” Şirkətini İdarə Heyətinin sədr müavini Taleh Yunsurov, “ASAN Könüllüləri” təşkilatını isə təşkilatın sədri Anar Musaev, eyni zamanda hər iki təşkilatın nümayəndə heyəti iştirak edib. Bununla da “Qala Sığorta” Şirkəti korporativ sosial məsuliyyət proqramı çərçivəsində gənclərin və uşaqların hərtərəfli inkişafı, onların məşğulluq və təhsil səviyyəsinin yüksəldilməsi, həmçinin dünya görüşü, fiziki və mənəvi sağlamlığının artırılması istiqamətində əhəmiyyətli layihələrin həyata keçirilməsinə start verir.

## Meqa Sığorta Qrupunun Təlim Mərkəzi fəaliyyətini davam etdirməkdədir

Mütəmadi olaraq keçirilən təlimlər sırasında “Həssas qruplara müştəri xidmətlərinin əsasları” adlı təlim də yer alıb. Təlim “Müstəqil Həyat Tərzi” Əlillərə Dəstək İctimai Birliyinin Sədri - Aydın Xəlilov tərəfindən keçirilib. Təlimin başlıca məqsədi - sosial cəhətdən həssas qrupların və fiziki məhdudiyyətləri olanların hərtərəfli müdafiəsinə və onlara göstərilən xidmətin yaxşılaşdırılmasına nail olmaqdır.




İki gün davam edən təlimdə iştirak edən iştirakçılar sertifikatlarla təltif olunublar..

| Sığorta sinifləri | 2023 I rüb | | 2024 I rüb | | Dinamika | |
| --- | --- | --- | --- | --- | --- | --- |
| | Sığorta haqqları | Sığorta ödənişləri | Sığorta haqqları | Sığorta ödənişləri | Sığorta haqqları | Sığorta ödənişləri |
| | min manatla | | | | | |
| **Könüllü sığortalar üzrə - cəmi:** | **255,355.9** | **78,217.8** | **278,311.8** | **124,135.7** | **8.99%** | **58.71%** |
| **Həyat sığortası üzrə, o cümlədən:** | **131,378.0** | **55,164.6** | **155,320.4** | **96,417.1** | **18.22%** | **74.78%** |
| Həyatın yaşam sığortası | 123,830.8 | 54,775.1 | 145,030.8 | 95,666.3 | 17.12% | 74.65% |
| Həyatın ölüm halından sığortası | 6,562.5 | 384.5 | 8,131.8 | 667.6 | 23.91% | 73.62% |
| Əmək qabiliyyətinin sığortası | 454.2 | 4.9 | 999.3 | 39.0 | 119.99% | 695.90% |
| Sağalmaz xəstəliklərdən sığorta | 530.4 | 0.2 | 1,158.5 | 44.3 | 118.42% | 29400.00% |
| **Qeyri-həyat sığortası üzrə, o cümlədən** | **123,977.9** | **23,053.2** | **122,991.4** | **27,718.6** | **-0.80%** | **20.24%** |
| Şəxsi sığorta, o cümlədən: | 72,347.6 | 17,141.7 | 70,543.7 | 20,423.5 | -2.49% | 19.15% |
| Tibbi sığorta | 70,543.7 | 17,040.8 | 68,634.6 | 20,262.5 | -2.71% | 18.91% |
| Xaricə səfər edən vətəndaşların sığortası | 1,148.1 | 67.9 | 983.3 | 80.0 | -14.36% | 17.82% |
| Fərdi qəza və xəstəlik sığortası | 655.8 | 32.9 | 925.8 | 81.0 | 41.18% | 145.97% |
| Əmlak sığortası, o cümlədən: | 51,630.3 | 5,911.5 | 52,447.6 | 7,295.2 | 1.58% | 23.41% |
| Əmlakın sığortası, o cümlədən: | 44,645.4 | 5,837.3 | 43,527.0 | 7,245.9 | -2.51% | 24.13% |
| Hava nəqliyyatı vasitələrinin sığortası | 96.2 | 0.0 | 2,432.5 | 28.3 | 2429.56% | |
| Əmlakın yanğından və digər risklərdən sığortası | 21,327.6 | 274.7 | 16,621.9 | 748.7 | -22.06% | 172.57% |
| Avtonəqliyyat vasitələrinin sığortası | 9,715.4 | 4,569.6 | 13,304.0 | 4,578.8 | 36.94% | 0.20% |
| Yüklərin (nəqliyyat) sığortası | 1,635.5 | 2.4 | 1,484.4 | 93.6 | -9.23% | 3812.25% |
| Kənd təsərrüfatı heyvanlarının sığortası | 397.1 | 305.6 | 625.2 | 358.9 | 57.45% | 17.41% |
| Su nəqliyyat vasitələrinin sığortası | 2,143.5 | 109.6 | 2,149.2 | 0.0 | 0.26% | -100.00% |
| Dəmiryol nəqliyyatı vasitələrinin sığortası | 15.9 | 0.0 | 23.8 | 0.0 | 49.47% | |
| Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 9,226.8 | 575.4 | 6,803.6 | 1,437.7 | -26.26% | 149.86% |
| Əmlakın sığortası ilə bağlı digər siniflər, o cümlədən: | 87.4 | 0.0 | 82.4 | 0.0 | -5.71% | |
| - Işçilərin dələduzluğu sığortası | 87.4 | 0.0 | 82.4 | 0.0 | -5.71% | |
| Mülki məsuliyyətin sığortası, o cümlədən: | 6,319.6 | 74.2 | 7,756.4 | 28.9 | 22.74% | -60.99% |
| Hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 68.7 | 0.0 | 49.3 | 0.0 | -28.20% | |
| Ümumi mülki məsuliyyətin sığortası | 4,688.4 | 73.0 | 5,497.6 | 21.7 | 17.26% | -70.34% |
| Avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 652.8 | 1.2 | 882.8 | 4.1 | 35.23% | 255.60% |
| Peşə məsuliyyətinin sığortası | 671.9 | 0.0 | 1,149.3 | 0.0 | 71.05% | |
| Işəgötürənin məsuliyyət sığortası | 148.0 | 0.0 | 145.6 | 0.0 | -1.62% | |
| Yük daşıyanın mülki məsuliyyətinin sığortası | 2.6 | 0.0 | 20.0 | 3.2 | 683.33% | |
| Su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 87.2 | 0.0 | 0.0 | 0.0 | -100.00% | |
| Mülki-hüquqi müqavilə üzrə mülki məsuliyyətin sığortası | 0.0 | 0.0 | 11.9 | 0.0 | | |
| Kredit sığortası, o cümlədən: | 665.3 | 0.0 | 1,164.2 | 20.3 | 74.99% | 76238.80% |
| Kreditlərin sığortası | 665.3 | 0.0 | 1,164.2 | 20.3 | 74.99% | 76238.80% |
| **İcbari sığortalar üzrə - cəmi:** | **91,553.6** | **24,071.9** | **94,828.7** | **29,190.9** | **3.58%** | **21.27%** |
| Həyat sığortası üzrə | 19,098.3 | 531.2 | 20,599.0 | 750.7 | 7.86% | 41.33% |
| İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta | 19,098.3 | 531.2 | 20,599.0 | 750.7 | 7.86% | 41.33% |
| Qeyri-həyat sığortası üzrə | 72,455.3 | 23,540.7 | 74,229.8 | 28,440.2 | 2.45% | 20.81% |
| Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası | 35,667.0 | 23,014.3 | 37,009.9 | 27,679.0 | 3.77% | 20.27% |
| Daşınmaz əmlakın icbari sığortası | 36,440.5 | 390.8 | 36,893.3 | 560.3 | 1.24% | 43.37% |
| Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası | 322.9 | 2.0 | 305.4 | 81.4 | -5.42% | 4072.90% |
| Sərnişinlərin icbari fərdi qəza sığortası | 15.5 | 0.0 | 11.9 | 0.0 | -23.31% | |
| Digər icbari sığorta növləri | 9.5 | 133.6 | 9.3 | 119.4 | -1.48% | -10.61% |
| **Yekun** | **346,910** | **102,290** | **373,140** | **153,327** | **7.56%** | **49.89%** |

Azərbaycan sığorta bazarında 2024-cü ilin ı rübünün 2023-cü ilin mütənasib dövrü ilə müqayisə etdikdə, sığorta haqlarının 7.56% artaraq 346,910 min manatdan, 373,140 min manata qədər yüksəldiyi müşahidə olunur.

Bu artımda əsas pay sahibi olan sığorta növləri həyatın yaşam sığortası (21,200 min manat), həyatın ölüm halından sığortası (1,569 min manat), avtonəqliyyat vasitələrinin sığortası (3,588 min manat) növləridir.




Təqdim olunan qrafiklərdən də görünür ki, 2024-cü ilin I rübünün sığorta haqlarının həcmi 2023-cü ilin I rübü ilə müqayisədə 7.56%, ödənişlər isə 49,89% artıb. Lakin ödənişlər barəsində nəticə çıxarmazdan əvvəl, ödənişlərin strukturunu nəzərdən keçirmək vacibdir. Ödənişlərin bu qədər kəskin artımının əsas səbəbi kreditlərin sığortası növü istiqamətində ödənişlərin artımıdır. Bu istiqamətdə ikinci yerdə sağalmaz xəstəliklərdən sığorta növü yer alır.






Bazar payı
(sığorta ödənişləri üzrə - 2023 I rüb)




Bazar payı
(sığorta ödənişləri üzrə - 2024 I rüb)




2024-cü ilin yanvar - mart aylarının 2023-cü ilin yanvar-mart ayları ilə müqayisəsindən məlum olur ki, yığımlarda könüllü sığorta növü 9% (22,955 min manat artım) artaraq 278,311 min manat olmuşdur. Ödənişlərin bölgüsündə isə könüllü sığorta üzrə ödənişlərin 59% (45,917 min manat artım) 78,217 min manatdan 124,135 min manat artaraq, bazar payının 81%-ni əhatə etdiyi müşahidə olunur.

Könüllü TOP 5 – 2023 I rüb
Sığorta haqlars üzrə




Könüllü TOP 5 – 2023 I rüb
Sığorta ödənişləri üzrə



## İcbari TOP 3 – 2024 II rüb
## Sığorta haqları üzrə




## İcbari TOP 3 – 2023 II rüb
## Sığorta ödənişlər üzrə




Müşahidə olunur ki, 2023-ci illə müqayisədə 2024-cü ildə həyatın yaşam sığortası növünün payı 21 mln manat artmış və TOP 5 könüllü sığorta məhsulları arasında 52% təşkil etmişdir. Bu göstərici sığorta ödənişlərində 77% təşkil etmişdir.

## HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2023 I rüb – 2024 I rüb **haqlar**)

| № | Sığorta növü | Dinamika (min manatla) |
|---|---|---|
| 1 | Həyatın yaşam sığortası | 21,200 |
| 2 | Həyatın ölüm halından sığortası | 1,569 |
| 3 | Əmək qabiliyyətinin sığortası | 545 |
| 4 | Sağalmaz xəstəliklərdən sığorta | 628 |
| 5 | İBHİS | 1,500 |



# HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2023 I rüb – 2024 I rüb **ödənişlər**)

| № | Sığorta növü | Dinamika (min manatla) |
|---|---|---|
| 1 | Həyatın yaşam sığortası | 40,891 |
| 2 | Həyatın ölüm halından sığortası | 283,1 |
| 3 | Əmək qabiliyyətinin sığortası | 34,1 |
| 4 | Sağalmaz xəstəliklərdən sığorta | 44,1 |
| 5 | İBHİS | 219,6 |




2024-cü ilin I rübünün ötən ilinin eyni dövrünə nisbətən artmasında əsas pay sahibi qeyri-həyat sığortası məhsullarıdır ki, bu da bütün sığorta bazarının 53%-ni (197,221 min manat) təşkil edir. Həyat sığortasında isə bu pay 47% (175,919 min manat) təşkil edir. Ödənişlərdə isə ümumi ödənişlərin 63%-i (97,168 min manat) həyat sığortasının, 37%-i (56,159 min manat) isə qeyri-həyat sığorta növlərinin payına düşür.

# QEYRİ-HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
# (2023-2024 I rüb **haqlar**)

| Sığorta növü | Dinamika (min manatla) |
|---|---|
| Fərdi qəza və xəstəlik sığortası | 270.1 |
| Əmlak sığortası, o cümlədən: | 817.3 |
| Hava nəqliyyatı vasitələrinin sığortası | 2,336.3 |
| Avtonəqliyyat vasitələrinin sığortası | 3,588.6 |
| Kənd təsərrüfatı heyvanlarının sığortası | 228.1 |
| Su nəqliyyat vasitələrinin sığortası | 5.7 |
| Dəmiryol nəqliyyatı vasitələrinin sığortası | 7.9 |
| Mülki məsuliyyətin sığortası, o cümlədən: | 1,436.8 |
| Ümumi mülki məsuliyyətin sığortası | 809.2 |
| AVSMMS | 230.0 |
| Peşə məsuliyyətinin sığortası | 477.4 |
| Yük daşıyanın mülki məsuliyyətinin sığortası | 17.4 |
| Kredit sığortası, o cümlədən: | 498.9 |
| Kreditlərin sığortası | 498.9 |
| AVSMMİS | 1,342.9 |
| Daşınmaz əmlakın icbari sığortası | 452.8 |







| Sığorta növü | Dinamika (min manatla) |
|---|---|
| Tibbi sığorta | -1909.1 |
| Xaricə səfər edən vətəndaşların sığortası | -164.8 |
| Əmlakın sığortası,  o cümlədən: | -1118.4 |
| Əmlakın yanğından və digər risklərdən sığortası | -4705.8 |
| Yüklərin (nəqliyyat) sığortası | -151.0 |
| Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | -2423.2 |
| Işçilərin dələduzluğu sığortası | -5 |
| HNVSMMS | -19.4 |
| İşəgötürənin məsuliyyət sığortası | -2.4 |
| Su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | -87.2 |
| Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari | -17.5 |
| Sərnişinlərin icbari fərdi qəza sığortası | -3.6 |
| Digər icbari sığorta növləri | -0.1 |

# QEYRİ-HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
# (2023-2024 I rüb **ödənişlər**)

| Sığorta növü | Dinamika (min manatla) |
|---|---|
| Şəxsi sığorta, o cümlədən: | 3,281.8 |
| Tibbi sığorta | 3,221.6 |
| Xaricə səfər edən vətəndaşların sığortası | 12.1 |
| Fərdi qəza və xəstəlik sığortası | 48.1 |
| Əmlak sığortası, o cümlədən: | 1,383.6 |
| Əmlakın sığortası, o cümlədən: | 1,408.6 |
| Əmlakın yanğından və digər risklərdən sığortası | 474.0 |
| Avtonəqliyyat vasitələrinin sığortası | 9.2 |
| Yüklərin (nəqliyyat) sığortası | 91.2 |
| Kənd təsərrüfatı heyvanlarının sığortası | 53.2 |
| Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 862.3 |
| AVSMMS | 3.0 |
| Kredit sığortası, o cümlədən: | 20.3 |
| Kreditlərin sığortası | 20.3 |
| İcbari sığortalar üzrə - cəmi: | 5,119.0 |
| Qeyri-həyat sığortası üzrə | 4,899.5 |
| AVSMMİS | 4,664.7 |
| Daşınmaz əmlakın icbari sığortası | 169.5 |
| Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası | 79.4 |







| Sığorta növü | Dinamika (min manatla) |
|---|---|
| Su nəqliyyat vasitələrinin sığortası | -109.6 |
| Mülki məsuliyyətin sığortası, o cümlədən: | -45.2 |
| Ümumi mülki məsuliyyətin sığortası | -51.4 |
| Digər icbari sığorta növləri | -14.2 |

# QEYRİ-HƏYAT SIĞORTA ŞİRKƏTLƏRİ ÜZRƏ DİNAMİKA

| № | Qeyri-həyat Sığorta Şirkətləri | 2023 I rüb | | 2024 I rüb | | Dinamika | |
|---|---|---|---|---|---|---|---|
| | | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Haqlar | Ödənişlər |
| 1 | "A-Qroup Sığorta Şirkəti" ASC | 5,639 | 3,517 | 4,988 | 3,261 | -11.55% | -7.30% |
| 2 | "Aqrar Sığorta" ASC | 9,567 | 799 | 7,346 | 1,752 | -23.21% | 119.22% |
| 3 | "AtaSığorta" ASC | 2,670 | 725 | 2,594 | 983 | -2.86% | 35.62% |
| 4 | "Atəşgah" Sığorta Şirkəti ASC | 7,565 | 4,250 | 12,253 | 4,525 | 61.96% | 6.46% |
| 5 | "Azərbaycan Sənaye Sığorta" ASC | 5,208 | 1,499 | 6,713 | 2,115 | 28.91% | 41.10% |
| 6 | "AzSığorta" ASC | 2,847 | 2,250 | 3,000 | 313 | 5.39% | -86.11% |
| 7 | "Bakı Sığorta" ASC | 1,486 | 603 | 805 | 466 | -45.85% | -22.78% |
| 8 | "Xalq Sığorta" ASC | 7,289 | 6,674 | 5,720 | 3,017 | -21.53% | -54.79% |
| 9 | "İpək Yolu Sığorta" ASC | 651 | 39 | 529 | 72 | -18.76% | 86.36% |
| 10 | "Qala Sığorta" ASC | 29,883 | 2,070 | 27,781 | 3,003 | -7.03% | 45.05% |
| 11 | "Meqa Sığorta" ASC | 8,107 | 1,970 | 9,547 | 2,952 | 17.77% | 49.87% |
| 12 | "Paşa Sığorta" ASC | 105,381 | 17,753 | 115,946 | 28,106 | 10.03% | 58.32% |
| | Lisenziyası ləğv edilmiş sığortaçılar | 10,142 | 4,444 | - | 5,595 | -100.00% | 25.90% |
| | YEKUN | 196,433 | 46,594 | 197,221 | 56,159 | 0.40% | 20.53% |

Ödənişlərə münasibətdə 2024-cü ilin I rübündə vəziyyət növbəti qrafikadakı kimidir. Sığorta ödənişlərinə görə bazarda 69.55% pay ilə PAŞA Sığorta Qrupu birinci yerdə qərarlaşdı. İkinci yeri 9.35% payla Atəşgah Sığorta Qrupu, üçüncü yeri Qala Sığorta Qrupu 8.84% payla, dördüncü yeri 3.08%-lə Meqa Sığorta Qrupu tutdu. Xalq Sığorta Qrupu 2.21% payla beşinci yerdədir. Beləliklə, biz bazar üzrə bütün sığorta ödənişlərinin 91.65%-nin 10 sığorta şirkətinin əlində cəmləşdiyini görə bilirik.

## Qeyri-həyat sığorta şirkətləri TOP-5 (sığorta haqları üzrə)




## Qeyri-həyat sığorta şirkətləri TOP-5 (sığorta ödənişləri üzrə)



# HƏYAT SIĞORTA ŞİRKƏTLƏRİ ÜZRƏ DİNAMİKA

| № | Sığortaçının adı | 2023 I rüb | | 2024 I rüb | | Dinamika | |
|---|---|---|---|---|---|---|---|
| | | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Haqlar | Ödənişlər |
| 1 | "Atəşgah Həyat" Sığorta Şirkəti ASC | 15,933 | 5,715 | 22,638 | 7,248 | 42.09% | 26.81% |
| 2 | "Xalq Həyat" Sığorta Şirkəti ASC | 2,397 | 761 | 2,538 | 1,857 | 5.90% | 143.90% |
| 3 | "Qala Həyat" Sığorta Şirkəti ASC | 5,782 | 868 | 5,190 | 1,011 | -10.23% | 16.46% |
| 4 | Meqa Həyat Sığorta ASC | 903 | 1 | 1,962 | 40 | 117.20% | 6053.53% |
| 5 | "Paşa Həyat Sığorta" ASC | 125,461 | 48,350 | 143,591 | 87,012 | 14.45% | 79.96% |
| | YEKUN | 206,000 | 47,393 | 204,567 | 57,910 | -0.70% | 22.19% |

## Həyat sığorta şirkətləri TOP- 5 (sığorta haqları üzrə)



## Həyat sığorta şirkətləri TOP-5 (sığorta ödənişləri üzrə)







(min manatla)

AZƏRBAYCAN SIĞORTAÇILAR ASSOSİASİYASI

Index: AZ1000, Baku, Azerbaijan
Ünvan: İçəri şəhər, Sabir küç. 3
Tel\fax: (+994 12) 492 80 45
E-mail:office@asa.az

www.asa.az